**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TİCARƏT MÜƏSSİSƏLƏRİNDƏ SEQMENT UÇOTUNUN METODOLOJİ ASPEKTLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | **5303.01 - Mühasibat uçotu** |
| Elm sahəsi: | **İqtisad elmləri** |
| İddiaçı: | **Adıgözəlova Aynur Əsgər qızı** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə - 2022**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar elm xadimi,
iqtisad elmləri doktoru, professor
**Bəyalı Xanalı oğlu Ataşov.**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru, dosent
**Niyazi Musa oğlu İsmayılov**

İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Nüşabə Astan qızı Qədimli**

İqtisad üzrə fəlsəfə doktoru
**Rövşən Kamil oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

**Dissertasiya Şurasının sədri:** __________ AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

**Dissertasiya Şurasının elmi katibi** __________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

**Elmi seminarın sədri:** __________ iqtisad elmləri doktoru, professor
**İbad Musa oğlu Abbasov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkəmizin iqtisadi inkişafının müasir dövründə mühasibat uçotunun yeni iqtisadi çağırışlara müvafiq şəkildə inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir. 2025-ciilədək olan dövrdə ölkə iqtisadiyyatının inkişaf istiqamətlərini müəyyən edən Strateji Yol Xəritəsində maliyyə və mühasibat uçotunun yeni iqtisadi inkişaf prioritetlərinə uyğunlaşdırılması məsələlərinə ciddi diqqət yetirilmişdir. Bunlar göstərir ki, mühasibat uçotunun yeni iqtisadi inkişaf prioritetlərinə uyğun təşkil edilməsi ölkənin iqtisadi inkişafının məqsədəuyğun şəkildə yönləndirilməsində mühüm rol oynayır. Bu konteksdə ölkə Prezidenti İlham Əliyevin müasir dövrümüzdə iqtisadi inkişafa həsr olunmuş yığıncaqlarda mühasibat uçotunun günün tələbləri səviyyəsində təşkili və inkişafı barədə səsləndirdiyi fikirlər də bu məsələnin ciddiliyinin bariz nümunəsi kimi qəbul edilə bilər. O, son illərdə ölkə iqtisadiyyatının inkişaf məsələlərinin təhlilinə dair çıxışlarında dəfələrlə mühasibat uçotunun inkişafına toxunmuş və ölkənin iqtisadi inkişafının yeni hədəflərə yüksəldilməsində onun mühüm əhəmiyyətə malik olduğunu vurğulamışdır.

Mühasibat uçotunun yeni iqtisadi inkişaf hədəflərinə uyğun təkmilləşdirilməsi məqsədi ilə 4 may 2018-ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa əhəmiyyətli dəyişikliklər edilmişdir. Qanuna əlavə edilmiş yeni müddəalar və aparılmış bir sıra dəyişikliklər mühasibat uçotunun inkişafında yeni istiqamətlərin açılmasına və onun iqtisadi inkişafın prioritet hədəflərinə uyğun harmonikləşdirilməsinə xidmət edir.

Mühasibat uçotunun inkişafında belə istiqamətlərdən biri də iqtisadiyyatın müxtəlif sahələrində seqment uçotunun tətbiq edilməsindən ibarətdir. Seqment uçotu müəssisənin və ya bütövlükdə təşkilatın seqmentar idarə edilməsi sisteminin təminedici tərkib hissəsi olub, özü ilə yanaşı olaraq, seqmentar hesabatlılıq sistemini meydana gətirir. Bütün bunlar kompleks şəkildə maliyyə və idarəetmə uçotunun bir-biri ilə əlaqəli formada inkişaf etdirilməsinə və bununla da maliyyə və idarəetmə informasiyalarının əlverişli şəkildə formalaşdırılmasına, həmçinin gəlirlərin artırılmasına, xərclərin optimallaşdırılmasına və səmərə-

liliyin yüksəldilməsinə gətirib çıxardır. Tədqiqat mövzusunun aktuallığı mühasibat uçotunun müasir inkişafı dövründə idarəetmə uçotunun daha əsaslı şəkildə tədqiq edilməsinin və onun tərkib elementlərindən biri olan seqment uçotu və hesabatının informasiya imkanlarından faydalanmağın yüksək əhəmiyyətə malik olması ilə əlaqədardır. Ticarət müəssisələrinin səmərəli idarə olunmasında, mal ehtiyatlarından, digər maddi resurslardan, eləcə də əmək və maliyyə resurslarından optimal şəkildə istifadə olunmasında seqment uçotu vasitəsilə formalaşdırıla bilən informasiyalar mühüm əhəmiyyətə malikdir. Buna görə də ticarət müəssisələrində mühasibat uçotunun yeni standartlarına uyğun olan bu məsələlərin tədqiq edilməsi öz aktuallığı ilə seçilir.

Müasir iqtisad elmində mühasibat uçotunun və maliyyə hesabatının bir çox məsələləri kifayət qədər tədqiq edilmiş, onlara dair müxtəlif məsələlərin öyrənilməsi bir çox tanınmış iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. Belə ki, bu sahə üzrə Q.Ə.Abbasov, S.M.Səbzəliyev, İ.M.Abbasov, M.H.İsmayılov, B.X.Ataşov, S.M.Qasımov, C.B.Namazova, F.Ş.Hacıyev, E.O.Cəfərov, Ə.A.Sadıqov, Ə.S.Salahov, S.M.Süleymanov, Ş.Ə.Cəfərova,V.M.Quliyev, F.M.Quliyev, Q.R.Rzayev, N.M.Ismayılov, H.A.Cəfərli, İ.M.Mahmudov, T.Ş.Zeynalov, Y.B.Əhmədov, Q.Bədəlov, S.Həşimova və başqalarının dəyərli tədqiqatları vardır. Həmçinin xarici ölkələrin iqtisadçı alimlərindən Y.A.Babayev, V.N.Jukova, V.R.Zaxarina, A.A.Sokolova, V.N.Qolovkina, E.N.Bondar, M.Y.Medvedeva, M.A.Pyatova, N.P.Kondrakov, T.P.Karpova, M.R.Metyus, M.V.Melnik, A.D.Lorioniov, N.A.Naumova, E.M.Tkaçenko, P.S.Bezrukux, V.F.Paliy, Y.V.Sokolov, K.Druri, B.Nidlz, E.Xendrikson, J.Rişar, Ç.T.Xornqren və başqalarının dəyərli əsərlərini da göstərmək lazımdır. Buna baxmayaraq, seqment uçotu və hesabatının nəzəri, metodoloji və tətbiqi məsələləri, onların təşkili, müasir vəziyyəti, iqtisadiyyatın müxtəlif sahələrində tətbiq olunması və idarəetmə uçotu çərçivəsində təkmilləşdirilməsi məsələləri lazımi qədər araşdırılmamışdır. Seqment uçotu və hesabatının bəzi nəzəri məsələlərnə burada göstərilən alimlərdən yalnız S.M.Səbzəliyevin əsərində müəyyən qədər yer verilmişdir. İstər Azərbaycanda olsun, istərsə də xarici ölkələrdə, mühasibat uçotunun yeni iqtisadi şəraitə uyğun təşkil edilməsinin bir çox məsələlərinin çoxsaylı iqtisadçı-alimlərin əsərlərində tədqiq edilməsinə baxmayaraq, ticarət

müəssisələrində seqment uçotunun nəzəri, metodoloji və tətbiqi məsələləri kifayət qədər araşdırılmamışdır. Ticarət müəssisələrində genişmiqyaslı təsərrüfat fəaliyyətinin mövcud olması, onların coğrafi məkan etibarilə geniş ticarət şəbəkəsinə malik olması, gəlirlərin və xərclərin formalaşdırılmasında çoxsaylı maddi-məsul şəxslərin iştirak etməsi və digər bu kimi məsələlər burada diqqəti seqment uçotunun idarəetmə imkanlarının tədqiq edilməsinə yönəldir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ümumilikdə götürülmüş ticarət müəssisəsinin biznes-kommersiya fəaliyyəti, burada baş verən əməliyyatların mühasibat uçotu və hesabatının təşkili məsələləri, daha konkret formada isə şərti informasiyalar əsasında yaradılmış "Alfa" MMC virtual ticarət müəssisəsinin kommersiya fəaliyyətinin mövcud vəziyyətinin uçotunun araşdırılmasından ibarətdir. Tədqiqatın predmetini ticarət müəssisəsində seqment uçotu və seqmentar hesabatlılıq sisteminin təşkil edilməsi və funksional fəaliyyətinin nəzəri və metodoloji problemləri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi ticarət müəssisəsinin biznes-kommersiya fəaliyyətinin əsas xüsusiyyətləri konteksində seqment uçotunun başlıca konsepsiyasının və onun istiqamətlərinin əsalandırılması və onun təşkil edilməsi metodikasının işlənib hazırlanmasından və bunların əsasında seqmentar idarəetmənin təşkili və seqmentar hesabatlılıq sisteminin metodikasının müəyyən edilməsindən ibarətdir. Göstərilən məqsədə uyğun olaraq, dissertasiya işi qarşısında aşağıdakı vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- ticarət sferasının müəssisə və təşkilatlarında idarəetmə uçotunun mühüm bir istiqaməti olan seqment uçotunun formalaşması prinsiplərinin tədqiq edilməsi;
- seqment uçotunun mahiyyətinin tədqiq edilməsi və bu əsasda onun təşkilinin metodoloji əsaslarının işlənib hazırlanması;
- ticarət müəssisəsində seqmentar idarəetmənin təşkilati quruluşunun müəyyən edilməsi;
- mal ehtiyatlarının seqmentlər üzrə bölgüsünün və bu şəraitdə mal əməliyyatlarının uçotu metodikasının işlənməsi;

- ticarət müəssisəsində seqment uçotunun tətbiqi şəraitində daxili idarəetmə hesabatlılığı elementlərinin metodiki əsaslarının işlənməsi;
- seqment uçotunun informasiyaları əsasında seqmentar maliyyə hesabatlarının formalaşdırılması metodikasının işlənməsi;
- ticarət müəssisəsində mal əməliyyatlarının seqmentar elektron uçotu modulunun yaradılması və onun tətbiqi metodikasının işlənməsi;
- seqment uçotunun, seqmentar idarəetmənin və seqmentar hesabatlılıq sisteminin bir-biri ilə əlaqəli şəkildə tədqiq edilməsi.

**Tədqiqat metodları.** Tədqiqat zamanı monoqrafik, balans, qruplaşdırma və ümumiləşdirmə, müqayisə, iqtisadi-riyazi və seçmə, təhlil və sintez, induksiya və deduksiya, modelləşdirmə və qrafik əks etdirməsi və başqa elmi-tədqiqat üsullarından istifadə edilmişdir. İqtisadi təhlilin müxtəlif metodlarından istifadə edilərək aparılmış müşahidələr və əldə olunmuş informasiyalar eynitipli xassələr üzrə qruplaşdırılaraq öyrənilmişdir. Tədqiqat prosesində həmçinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və digər təşkilatların internet resurslarında yayımlanmış materiallardan, elektron mühasibat uçotuna aid proqram təminatlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardır:

- mal ehtiyatlarının tədarük edilməsi, anbara mədaxil edilməsi, seqmentlər arasında baş qərar qəbul edici şəxsin rəhbərliyi ilə bölüşdürülməsi və son satışı da daxil olmaqla, bütün mərhələlər üzrə əməliyyatların sənədləşdirilməsi və uçotu metodikası işlənib hazırlanmışdır;

- topdanticarət və pərakəndə ticarət əməliyyatları seqmentlərinin hər birində çalışan maddi-məsul şəxslərin daxili idarəetmə hesabatlarının seqment uçotunun xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılmış formaları işlənib təqdim edilmiş, seqment uçotu üçün zəruri olan informasiyaların onlarda əks etdirilməsi, mühasibat qaydasında işlənməsi və ümumiləşdirilərək, uçot registrlərinə daxil edilməsi prinsipləri əsaslandırılmış, onların nümunəsində mal əməliyyatlarının seqment uçotunda ilkin qeydiyyatı və uçot registrlərinə daxil edilmək üçün ümumiləşdirilməsi qaydaları işlənmişdir;

- müəllif tərəfindən şərti rəqəmlər əsasında yaradılmış virtual ticarət müəssisəsinin timsalında seqmentlər üzrə maliyyə hesabatlarının

hazırlanmasının və onlarda informasiyaların əks etdirilməsinin təşkilati və metodiki prinsipləri əks etdirilmiş, həmçinin, maliyyə hesabatlarının ayrı-ayrı formaları üzrə tipik işləmə cədvəllərindən istifadə edilməsi, eləcə də əhəmiyyətli maddələrin  izahlı qeydlərdə açıqlanması metodikası işlənmişdir;

- "Microsoft Excel" vərəqəsində müəllif tərəfindən "Seqment uçotu-1" adlanan elektron informasiya işləmələri modulu yaradılmış və bu modulda ticarət müəssisələrində fəaliyyət göstərən topdanticarət əməliyyatları seqmentində malların topdansatışı üzrə biznes-təsərrüfat əməliyyatlarının sənədləşdirilməsinin, seqment uçotunun və seqmentar marjinal gəlirin hesablanmasının avtomatlaşdırılmış elektron informasiya işləmələri rejimində yerinə yetirilməsi məsələləri nümayiş etdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi** ticarət müəssisələrində seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin nəzəri, metodoloji və praktiki məsələlərinin ilk dəfə araşdırılması və onların tətbiq edilməsi metodikasının işlənməsi məsələlərinin ticarət müəssisələrinin biznes fəaliyyətinin xüsusiyyətlərinə uyğun olaraq tədqiq edilməsindən ibarətdir. Bu konteksdə tədqiqat işinin elmi yeniliyi aşağıda göstərilən bir sıra konkret məsələləri də əhatə edir:

– "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına əsaslanaraq, "Əməliyyat seqmentləri" adlı 8№-li Maliyyə Hesabatlarının Beynəlxalq Standartında verilmiş əməliyyat seqmentinin mahiyyəti araşdırılaraq, ifadələr dəqiqləşdirilmiş, təkmilləşdirilmiş və onun yeni tərifi müəyyən edilmişdir;

– "Alfa" MMC-nin timsalında ticarət müəssisələrində seqmentar idarəetmə sisteminin yaradılması və seqment uçotunun təşkilinin metodikası işlənib hazırlanmış və bu əsasda müəssisə üzrə seqmentar maliyyə hesabatının işlənməsi prinsipləri müəyyən edilmişdir;

– ticarət müəssisələrində mal ehtiyatlarının artırılması və maddi-texniki bazanın genişləndirilməsinə yeni investisiyaların cəlb edilməsi üçün öz qiymətli kağızlarının, borc və kapital alətlərinin yerli və xarici fond birjalarında dövriyyəyə buraxılması məsələləri əsaslandırılmışdır;

– seqmentar idarəetmə sisteminin təşkilati mexanizmi əsaslandırılmış, seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin təşkil

edilməsinə dair sənədlərin nümunəvi formaları işlənib hazırlanmışdır;

– müəssisədə seqment uçotunun tətbiq edilməsi üçün onun uçot siyasətində hansı dəyişikliklərin edilməli olduğu və bu dəyişikliklərin hansı məsələləri əhatə etməli olduğu əsaslandırılmış və bu konteksdə müəssisənin nümunəvi uçot siyasəti haqqında əsasnaməsindən lazımi çıxarışlar işlənib hazırlanmışdır;

– seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin əlverişli təşkil edilməsində mühasibat uçotunun işçi hesablar planının yerinə yetirdiyi funksiyalar əsaslandırılmış və işçi hesablar planının seqment uçotunun xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılması metodikası işlənmişdir;

– vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsi proseslərinin və onlara aid sənədləşdirmə işlərinin metodikası işlənib hazırlanmışdır;

– xarici ölkələrdə olan malsatanlardan alınmış malların müəssisənin öz anbarınadək daşınıb gətirilməsi xərclərinin malların maya dəyərinə daxil edilməsi və bu prosesdə xərclərin malsatanın buraxılış qiymətlərinə əlavə edilməsi əmsalının hesablanması və tətbiqi metodikası işlənib hazırlanmışdır;

– seqment uçotu şəraitində malların topdanticarət və pərakəndə ticarət əməliyyatları seqmentləri üzrə bölüşdürülməsinin, onların seqment obyektləri üzrə məxaricinin (satışının) təşkilinin, bu proseslərdə seqmentlərarası transfert qiymətlərindən istifadə edilməsinin, satış əməliyyatları üzrə marjinal gəlirlərin hesablanmasının və bu əməliyyatların sənədləşdirilməsinin metodikası işlənib hazırlanmışdır;

– seqment uçotunun informasiyaları əsasında müəssisənin seqmentar maliyyə hesabatlarının hazırlanması prosesinin metodikası işlənmiş, burada istifadə ediləcək analitik işləmə cədvəllərinin nümunələri təqdim edilmişdir;

– müəssisənin seqmentar maliyyə hesabatlarının ayrı-ayrı maddələrində əks olunmuş informasiyaların formalaşdırılmasının fərqli xarakterik xüsusiyyətlərə malik olduğu əsaslandırılmış və bu konteksdə hesabatın bir neçə maddəsi üzrə informasiyaların izahlı qeydlərdə açıqlanması metodikası verilmişdir;

– ticarət müəssisəsinin tərkibində fəaliyyət göstərən topdanticarət əməliyyatları seqmentində malların topdansatışı üzrə biznes-təsərrüfat əməliyyatlarının sənədləşdirilməsi, seqment uçotu və seqmentar

marjinal gəlirin hesablanması əməliyyatlarının avtomatlaşdırılmış elektron informasiya işləmələri rejimində yerinə yetirilməsini təmin edən "Seqment uçotu-1" modulu yaradılmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın əsas nəzəri və metodiki xarakterli müddəaları, alınmış nəticələr, verilmiş təklif və tövsiyələr ticarət müəssisələrində seqment uçotunun nəzəri və təcrübi məsələlərinin araşdırılaraq, onun müəssisələrin praktik fəaliyyətində istifadə edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Həmçinin, dissertasiyada işlənmiş materiallardan və verilmiş nümunələrdən təkcə ticarət müəssisələrində deyil, eləcə də iqtisadiyyatın digər sahələrinə aid ayrı-ayrı müəssisə və təşkilatların hər birinin öz təsərrüfat fəaliyyətinin xarakterik xüsusiyyətlərinə uyğun olan seqment uçotu modellərinin hazırlanmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi:** Dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universitetinin "Mühasibat uçotu və audit" kafedrasının elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmaqla, aktual problem kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuş və bəyənilmişdir. Tədqiqatın əsas müddəa, nəticə və təklifləri Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallardakı 6 məqalədə, Azərbaycan Kooperasiya Universitetinin (1-2 iyun 2018), Sankt-Peterburq şəhərində "ПЕРЕСВЕТ" Elmi-Tədqiqat Mərkəzinin (16 aprel 2021) və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının (31 may 2021) keçirtdikləri beynəlxalq elmi-praktik konfransların materiallarındakı 3 tezisdə öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlər sırasında "Seqment uçotunun nəzəri əsaslarına dair bəzi məsələlər" (Bakı, 2016), "Aqrar sektorun emal və ticarət müəssisələrində seqment uçotunun xarakterik xüsusiyyətləri" (Bakı, 2019), "Principles of reflecting information in segmental financial statements and disclosing them in explanatory notes" (Moskva, 2021), "Ticarət müəssisələrində seqment uçotu şəraitində mühasibat uçotunun işçi hesablar planının formalaşdırılmasının bəzi xüsusiyyətləri" (Bakı, 2021), "Ticarət müəssisələrində seqment uçotunun təşkilinin və gəlirlərin artırılmasının bəzi məsələləri" (Gəncə, 2021) və "Müəssisənin uçot siyasətinin seqment uçotunun əsas xüsusiyyətlərinə uyğunlaşdırılmasının bəzi məsələləri" (Bakı, 2021) adlı məqalələri göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş (14538 işarə), I fəsil (59211 işarə), II fəsil (78891 işarə), III fəsil (77606 işarə), nəticə (17277 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (20258 işarə) üzrə ümumi həcm 271956 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarların siyahısı istisna olmaqla 247523 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsədi və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. öz əksini tapmışdır.

Dissertasiya işinin **"Seqment uçotunun təşkilinin konseptual prinsipləri və nəzəri-metodoloji əsasları"** adlanan **birinci fəslində** seqment uçotunun mahiyyəti izah edilərək, müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin idarəedilməsində onun yeri və rolu göstərilmiş, bunların əsasında ticarət müəssisələrində seqment uçotunun təşkilinin prinsipləri və əsas xarakterik xüsusiyyərləri şərh edilmiş, beynəlxalq standartların tətbiqi şəraitində seqment uçotu və hesabatının inkişafının metodoloji aspektləri araşdırılmışdır.

Burada göstərilir ki, seqment uçotunun iqtisadi mahiyyətinin araşdırılması və onun təşkili məsələlərinin işlənməsi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gəlir və bu baxımdan da mühüm əhəmiyyətə malikdir. Müəssisə və təşkilatlarda seqment uçotunun nəzəri və metodoloji məsələlərini araşdırmaq üçün mühasibat uçotu və maliyyə hesabatının müvafiq beynəlxalq standartlarında verilmiş müddəalardan istifadə edilir. Həmin standartların məzmunundan aydın olur ki, müasir dövrdə müəssisədə seqmentlər məzmun və mahiyyət əlamətlərinə görə 2 növə bölünür: 1) əməliyyat seqmentləri; 2) coğrafi seqmentlər. Əməliyyat seqmentləri müəssisənin təsərrüfat-maliyyə fəaliyyətinin xarakterik xüsusiyyətlərini nəzərə almaqla, coğrafi seqmentlər isə müəssisənin fəaliyyət

göstərdiyi coğrafi məkanın ərazi-relyef, təbii-iqlim, siyasi-iqtisadi və alıcı bazarları əlamətlərinin müxtəlifliyi əsasında formalaşdırılır. Seqmentlərin necə formalaşdırılması şərtləri standartların tələbləri ilə müəyyən edilmişdir. Hər iki halda seqment müəssisənin elə bir tərkib hissəsi olmalıdır ki, o, müəyyən edilmiş bir və ya bir sıra əlamətlərə görə digərlərindən fərqlənsin. Belə əlamətlər əməliyyat seqmentlərində seqmentin məhsul istehsalı, xidmətlərin göstərilməsi, satış, resursların tədarükü və istehlakı proseslərinin müxtəlifliyi ilə, coğrafi seqmentlərdə isə seqmentin iqtisadi və siyasi mühitinin, ayrı-ayrı coğrafi məkanda mövcud olan fəaliyyət növlərinin, eləcə də risklərin müxtəlifliyi ilə şərtləndirilir.

"Əməliyyat seqmentləri" adlı 8№-li Maliyyə Hesabatlarının Beynəlxalq Standartında[1] verilmiş əməliyyat seqmentinin mahiyyətinin əsaslı şəkildə araşdırılması, orada verilmiş ifadələrin mənasının dəqiqləşdirilməsi nəticəsində, müəllif tərəfindən, iqtisadi ədəbiyyatda əməliyyat seqmentinin tərifinin bu məzmunda ifadə olunması təklif edilir: Əməliyyat seqmenti kommersiya fəaliyyəti ilə məşğul olan müəssisənin ayrıca hesablanıla bilən gəlir əldə edən və ya xərcə yol verən, əməliyyat nəticələri müəssisənin baş qərar qəbuledicisi tərəfindən vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsi və onların fəaliyyət nəticələrinin qiymətləndirilməsi məqsədi ilə müntəzəm olaraq nəzərdən keçirilən, ayrıca maliyyə məlumatı əldə edilə bilən tərkib hissəsidir[2].

Dissertasiyada müəllif tərəfindən şərti informasiyalar əsasında virtual "Alfa" MMC yaradılmışdır ki, bu da əhaliyə ticarət və ictimai iaşə xidmətlərinin göstərilməsi ilə məşğul olan kommersiya müəssisəsidir. Bu müəssisə topdanticarət, pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğuldur və müəssisənin mühasibat şöbəsində topdanticarət, pərakəndə ticarət və ictimai iaşə əməliyyatlarının ayrı-ayrılıqda uçotu təşkil olunmuşdur. Hər ayın sonunda müəssisənin gəlir və xərcləri aşağıda göstərilən bir neçə göstəricilər üzrə hesablanır:

---

[1] 8№-li Maliyyə Hesabatlarının Beynəlxalq Standartı. "Əməliyyat seqmentləri". -© MHBS Fondu. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. 12s.

[2] Adıgözəlova A.Ə. Seqment uçotunun nəzəri əsaslarına dair bəzi məsələlər. "Kooperasiya" elmi-praktiki jurnalı №4(43) Bakı, 2016, səh.141-145.

1) topdanticarət fəaliyyəti üzrə gəlir və xərclər;
2) pərakəndə ticarət fəaliyyəti üzrə gəlir və xərclər;
3) ictimai iaşə fəaliyyəti üzrə gəlir və xərclər;
4) bu fəaliyyət növlərinin heç birinə aid olmayan və müəssisənin ümumi təsəttüfat-maliyyə fəaliyyəti ilə əlaqədar olan gəlir və xərclər.

Burada göstərilən 4 istiqamət üzrə gəlir və xərclərin cəmi məbləği müəssisənin maliyyə hesabatında göstərilən gəlirlərin və xərclərin məbləğinə uyğun olur. Göstərilən 4 istiqamətin hər biri üzrə maliyyə nəticələrini, mənfəət və zərərləri hesablamaq mümkün olur. Burada verilmiş şərtlər daxilində "Alfa" MMC-nin təsərrüfat-maliyyə fəaliyyətində 3 əməliyyat seqmentinin mövcud olduğu görünür ki, onlardan da birincisi topdanticarət fəaliyyəti üzrə əməliyyat seqmenti, ikincisi pərakəndə ticarət fəaliyyəti üzrə əməliyyat seqmenti, üçüncüsü isə ictimai iaşə fəaliyyəti üzrə əməliyyat seqmentidir. Onları sadəcə olaqaq, topdanticarət əməliyyatı seqmenti, pərakəndə ticarət əməliyyatı seqmenti və ictimai iaşə əməliyyatı seqmenti adlandırmaq olar. Qeyd etmək lazımdır ki, yuxarıda gəstərilən 4-cu istiqamət əməliyyat seqmentinin şərtlərinə uyğun gəlmədiyi üçün onu ayrıca əməliyyat seqmenti kimi qəbul etmək olmaz.

Tədqiqat nəticəsində aydın olur ki, ticarət müəssisəsində seqment uçotunun qurulması və seqmentar maliyyə hesabatının tətbiq edilməsi onun optimal və səmərəli fəaliyyəti üçün lazım olan mal ehtiyatlarının yaradılmasına qeyri-bank borc alətlərinin cəlb edilməsi imkanı yaradır. Bank kreditlərindən istifadənin baha başa gəldiyi müasir dövr üçün qeyri-bank mənşəli borc alətlərindən istifadə edilməsinin əlverişli olması əsaslandırılır. Bu əsasda yaxın və uzaq xarici ölkələrdən daha çox mal ehtiyatlarının cəlb edilməsinin seqment uçotu ilə qarşılıqlı əlaqəyə malik olduğu göstərilir. Ticarət müəssisələri öz qiymətli kağızlarını və borc alətlərini xarici ölkələrin fond birjalarında dövriyyəyə buraxmaqla, yaxın gələcəkdə yüksək səviyyəli inkişafa nail ola bilərlər və bu istiqamətdə ölkəmizin sosial-iqtisadi inkişafına mühüm təkan verə bilərlər. Ona görə də ölkəmizdə fəaliyyət göstərən ticarət müəssisələri tərəfindən özlərinin qiymətli kağızlarının və digər borc alətlərinin həm ölkə daxilində, həm də genişmiqyaslı əhatə dairəsinə malik olan beynəlxalq fond birjalarında dövriyyəyə buraxması məqsədəuyğun hesab edilir. Bununla onlar külli miqdarda investisiya cəlb

edə bilərək, öz maddi-texniki bazasını müasir səviyyədə inkişaf etdirmək, kommersiya fəaliyyətini daha da genişləndirmək, mal dövriyyəsinin həcmini artırmaq, daha çox gəlir əldə etmək, öz mənfəətini və rentabelliyini yüksəltmək imkanı qazanarlar. Belə imkanların reallaşdırılması nəticəsində ticarət müəssisələri daha çox inkişaf edər, onlarda çalışan işçilərin maddi vəziyyəti yaxşılaşar, yeni iş yerləri yaradılar və büdcəyə daha çox vergilər verilər. Borc və kapital alətlərinin dövriyyəyə buraxılmasının yolu seqment uçotunun tətbiq edilməsindən keçir ki, bunlar da bir çox iqtisadçı alimlərin diqqətini cəlb etmişdir[3].

Dissertasiyada ticarət müəssisəsində seqment uçotunun qurulmasının metodikası təqdim edilir. Müəssisədə seqment uçotunun ilkin olaraq qurulması fəaliyyətinin məzmunu və ardıcıllığı müəssisə rəhbərinin əmrlərində əks olunur. Seqment uçotunun qurulması proseslərinə start verən və onun gedişatını istiqamətləndirən həmin əmrlərin nümunələri müəllif tərəfindən hazırlanaraq, dissertasiyada verilmişdir.

Seqment uçotunun tətbiqinə başlamazdan əvvəl, onun barəsində müəssisənin uçot siyasəti haqqında əsasnaməsində lazımi qeydlər daxil edilməlidir. Burada hər bir seqmentin xarakterik xüsusiyyətləri, əhatə dairəsi, uçotun aparılması xüsusiyyətləri, əsas maliyyə göstəriciləri, seqmentar hesabatın tərkibi və elementləri, onların təqdim edilməsi xüsusiyyətləri, məlumatların açıqlanması məsələləri qeyd edilməlidir[4] və "Seqment Hesabatları" adlı 18№-li İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartında[5] öz əksini tapmışdır. Belə ki, açıqlanmalı olan informasiyalar göstərilən standartlarda iki qrupa bölünür: 1) seqmentlər haqqında açıqlanmalı olan ümumi informasiyalar; 2) hər bir seqmentin maliyyə hesabatlarında əks olunmuş maliyyə göstəricilərinə dair açıqlanmalı olan informasiyalar.

---

[3] Ronald Hilton, David Platt. Managerial Accounting: Creating Value in a Dynamic Business Environment. 12th edition, 2019

[4] 8№-li Maliyyə Hesabatlarının Beynəlxalq Standartı. "Əməliyyat seqmentləri". -© MHBS Fondu. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. 12s.

[5] 18№-li İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartı. "Seqment Hesabatları". -© MHBS Fondu. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytı. www.maliyye.gov.az. 14s.

Dissertasiya işinin ikinci fəsli **"Ticarət müəssisələrində seqment uçotunun təşkilinin müasir vəziyyəti və onun informasiya işləmələrinin təhlili"** adlanır. Burada seqment uçotu və seqmentar hesabatlılıq şəraitində müəssisənin uçot siyasətinin formalaşdırlması xüsusiyyətləri araşdırılmış, onun tərkib hissəsi olaraq, müəssisənin mühasibat uçotunun işçi hesablar planının seqment uçotunun xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılması məsələləri tədqiq edilmiş və ticarət müəssisələrində seqment uçotunun tətbiq edilməsi şəraitində vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsinin və hərəkətinin uçotu metodikası işlənib hazırlanmışdır.

Fəslin əvvəlində tərəfimizdən hazırlanmış "Alfa" MMC-nin kommersiya fəaliyyətinin seqmentar idarə edilməsinin təşkilat quruluşu verilmişdir (sxem 1)




**Sxem 1. "Alfa" MMC-nin kommersiya fəaliyyətinin seqmentar idarə edilməsinin təşkilat quruluşu**

*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Müəssisədə seqment uçotunun qurulması özlüyündə seqmentar hesabatlılıq sisteminin təşkil edilməsi ilə nəticələnir ki, bunların da hər ikisi uçot siyasətinin özünəməxsus şəkildə müəyyən edilməsini şərtləndirir. Müəllifin fikrincə, seqment uçotunun tətbiq edilməsi məqsədi

ilə müəssisənin uçot siyasətində edilən dəyişikliklər aşağıda göstərilən bir sıra məsələləri əhatə etməlidir:

1. Müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə seqmentlər üzrə ümumi məlumatlar daxil edilməlidir. Burada seqmentin adı və qısa xarakteristikası əks olunur. Həmin seqmentlərin fəaliyyət göstərmiş olduğu hər ilin sonunda seqmentlər üzrə məlumatlar maliyyə hesabatları üzrə izahlı qeydlərdə açıqlanmalıdır.

2. Müəssisənin mühasibat uçotunun işçi hesablar planı yaradılacaq seqmentlərin növünə, tərkibinə və fəaliyyət istiqamətlərinə uyğunlaşdırılmaqla, seqment uçotunun səmərəli təşkil edilə bilməsi məqsədi ilə təkmilləşdirilməlidir. Bunun əsasında növbəti ilin əvvəlindən tətbiq ediləcək işçi hesablar planı müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə daxil edilməlidir.

3. Müəssisənin uçot siyasəti haqqında əsasnaməsində, seqmentlərə aid olan informasiyaların maliyyə hesabatları üzrə izahlı qeydlərdə necə açıqlanacağına dair siyahı əks olunmalı və bu siyahıda hansı informasiyaların üstünlüklə açıqlanacağı qeyd olunmalıdır və s.

Uçot siyasəti haqqında əsasnaməyə müəssisənin seqmentləri haqqında məlumatların əlavə edilməsi vacib məqamlardan hesab edilir. Ona görə ki, seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edildiyi müəssisələrin illik maliyyə hesabatlarında seqmentlər üzrə məlumatlar bu əsasnamədə verilmiş informasiyalar əsasında açıqlanır[6]. Buna əsaslanaraq, dissertasiyada əməliyyat seqmentləri haqqında ümumi məlumatların müəssisənin uçot siyasəti haqqında əsasnaməsində necə verilməsi nümunəsi göstərilmişdir. Burada verilmiş müddəalar əsasında hər ilin sonunda təqdim ediləcək illik maliyyə hesabatları üzrə izahlı qeydlərdə hər bir əməliyyat seqmentinə dair məlumatlar açıqlanacaqdır.

Seqment uçotu şəraitində müəssisədə yaradılmış hər bir seqment üzrə biznes fəaliyyətinin uçotu digər seqmentlərin biznes fəaliyyətinin uçotundan ayrılıqda olmaqla aparılmalıdır. Burada müəssisənin mühasibat uçotunun işçi hesablar planı mühüm tənzimləyici funksiya yerinə

---

[6] Карпова Т.П. Управленческий учет: учебник для вузов. М: Аудит, ЮНИТИ, 2018, с.291

yetirə bilər. Tədqiqat işində hal-hazırda müəssisə və təşkilatlarda istifadə edilməkdə olan hesablar planına müxtəlif çeşidli subhesablar və alt-subhesablar artırmaqla, onun konkret müəssisənin biznes-təsərrüfat-maliyyə fəaliyyətinin xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılması təklif olunur. İşdə müxtəlif biznes situasiyalarında müəssisələrin işçi hesablar planına subhesabların əlavə edilməsi təcrübəsi tədqiq edilərək, ticarət müəssisələrində seqment uçotunun aparıldığı şəraitdə müəssisənin biznes fəaliyyətinə və seqmentar idarəetmə quruluşuna uyğun olaraq, onun işçi hesablar planında 205№-li "Mallar" sintetik hesabının tərkibinə aşağıda göstərilən birincidərəcəli subhesabların təyin edilməsi təklif edilir:

205.1. Topdanticarət əməliyyatları seqmentində olan mallar;

205.2. Pərakəndə ticarət əməliyyatları seqmentində olan mallar;

205.3. İctimai iaşə əməliyyatları seqmentində olan mallar;

205.4. Seqmentdənkənar fəaliyyətə aid olan mallar.

Qeyd edilir ki, daha sonra işçi hesablar planında həmin birincidərəcəli subhesabların tərkibində müxtəlif istiqamətli ikincidərəcəli subhesablar yaradılmaqla, mal əməliyatlarının uçotuna dair informasiyaların seqment uçotunun tələblərinə uyğun işlənməsinə əlverişli şərait yaradacaqdır. Bununla da işçi hesablar planına daxil edilmiş subhesablara dair bir sıra iqtisadçı alimlərin göstərmiş olduqları tələblər də yerinə yetirilmiş olacaqdır[7].

Müəssisə və təşkilatlarda seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin təşkil edildiyi şəraitdə vəsaitlərin uçotu prosesləri onların seqmentlər üzrə bölüşdürülməsi ilə sıx bağlıdır. Ticarət müəssisələrində mal ehtiyatlarının seqmentlər üzrə bölüşdürülməsi prosesi müəssisənin seqmentar idarə edilməsinin təşkilat quruluşu əsasında yerinə yetirilir ki, bu da mal əməliyyatlarının uçotu proseslərini özünəməxsus qaydalarla istiqamətləndirir. Tədqiqat işində mal ehtiyatlarının tədarük edilməsi və satışının bütün mərhələləri üzrə əməliyyatların sənədləşdirilməsi və uçotu metodikası işlənib hazırlanmışdır. Daha sonra topdanticarət və pərakəndə ticarət seqmentlərinin hər biri

---

[7] Sadıqov Ə.A, Cəfərova Ş.Ə. və b. Mühasibat uçotu. Dərslik. Bakı, "Təhsil İşçisi Mətbəəsi" ASC, 2012, s.61, 361

üzrə malların alıcı müəssisələr və pərakəndə ticarət obyektləri arasında bölgüsü cədvəllərində işlənmiş informasiyalar əsasında malların satışı prosesləri təşkil edilmiş və satış gəlirlərinin hesablanması cədvəlləri tərtib edilmişdir.

Pərakəndə ticarət əməliyyatları seqmentinin mal satışından əldə etdiyi marjinal gəlirin hesablanması üçün aşağıdakı düsturdan istifadə edilməsi təklif edilir:

$$MG = M_{psq} – M_{tsq} + M_{tg} \quad \text{və yaxud,}$$

$$MG = M_{psq} – M_{trq}$$

Burada MG - mal satışından əldə edilən marginal gəlirin məbləği;

$M_{psq}$ - satılmış malların pərakəndə satış qiymətləri üzrə məbləğlərinin cəmi;

$M_{tsq}$ - satılmış malların topdansatış qiymətləri üzrə məbləğlərinin cəmi;

$M_{tg}$ - satılmış malların payına düşən ticarət güzəştinin məbləği;

$M_{trq}$ - satılmış malların tpansfert qiymətləri üzrə məbləğlərinin cəmidir.

Dissertasiya işinin **“Ticarət müəssisələrində seqment uçotu və seqmentar hesabatlılığın təkmilləşdirilməsi”** adlanan **üçüncü fəslində** seqment uçotu və seqmentar hesabatlılıq şəraitində daxili idarəetmə hesabatı sisteminin təşkili və təkmilləşdirilməsi istiqamətləri tədqiq edilərək, seqmentlər üzrə maliyyə hesabatları və onlarda informasiyaların əks etdirilməsi prinsipləri və prioritetləri, həmçinin də bunların məntiqi davamı olaraq, ticarət müəssisələrində seqment uçotu və hesabatında elektron mühasibat uçotu texnologiyalarının tətbiq edilməsi metodikası işlənib hazırlanmışdır.

Ticarət müəssisələrində seqmentar idarəetmənin təşkilat quruluşuna uyğun olan idarəetmə uçotunun qurulması üçün zəruri informasiya bazasını formalaşdıran idarəetmə hesabatı sisteminin metodiki əsasları təqdim edilir ki, bunun da tərkibində müəllif tərəfindən hazırlanmış daxili idarəetmə hesabatları: anbarda mal və taraların hərəkəti haqqında hesabat, sürücü-ekspeditorun mal hesabatı və pərakəndə ticarət şəbəkəsinin maddi-məsul şəxsləri tərəfindən təqdim edilən mal-pul hesabatı yer almışdır. Tədqiqat işinin bundan əvvəlki fəsillərində işlən-

miş bölgü cədvəlləri və mal sənədləri burada sözügedən idarəetmə hesabatlarının tərkib hissələri olmaqla, onlar birlikdə mal əməliyyatlarının seqment uçotunun vahid informasiya kompleksini yaratmışdır.

Bizim fikrimizcə, seqmentar maliyyə hesabatlarının hazırlanması prosesində maliyyə hesabatlarının ayrı-ayrı formaları üzrə tipik işləmə cədvəllərindən istifadə edilməsi məqsədəuyğundur. Məsələn, müəssisənin maliyyə vəziyyəti haqqında maliyyə hesabatının hazırlanması prosesində aşağıda göstərilən işləmə cədvəldən istifadə edilməsini məqsədəuyğun hesab edirik (sxem 2).




**Sxem 2. Seqmentar maliyyə hesabatlarının hazırlanması prosesi**

*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Müəssisədə seqment uçotunun xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılmış idarəetmə hesabatı sisteminin əsasında seqmentar maliyyə

hesabatlarının işlənməsi metodikası təqdim edilir ki, buraya da maliyyə hesabatı formalarının hazırlanmasının işləmə cədvəlləri və əhəmiyyətli informasiyaların izahlı qeydlərdə açıqlanması nümunələri daxildir. Məsələn, maliyyə vəziyyəti haqqında hesabatın 20-ci "Ehtiyatlar" maddəsinin açıqlamasının izahlı qeydlərdə əks etdirilməsinin müəllif tərəfindən təklif edilən nümunəsi aşağıda verilmişdir:

**"Alfa" MMC-nin seqmentar maliyyə hesabatlarına dair izahlı qeydlər** *(çıxarış)*

**10. Ehtiyatlar**

31 dekabr 2020-ci il tarixinə ehtiyatların tərkibi və onların ayrı-ayrı əməliyyat seqmentləri üzrə yerləşdirilməsi vəziyyəti aşağıdakı cədvəldə verilir:

*Ölçü vahidi: min manat*

| **Ehtiyatların tərkibi** | Topdanticarət əməliyyatları seqmenti | Pərakəndə ticarət əməliyyatları seqmenti | İctimai iaşə əməliyyatları seqmenti | Seqmentdənkənar fəaliyyət | CƏMİ |
|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* |
| 1. Mal ehtiyatları: | | | | | |
| satış qiyməti ilə | 6418,8 | 2570,2 | 25,7 | | 9014,7 |
| ticarət əlavəsi (çıxılır) | 1154,3 | 411,4 | 5,3 | | 1571,0 |
| maya dəyəri üzrə | 5264,5 | 2158,8 | 20,4 | | 7443,7 |
| 2.Material ehtiyatları | 14,3 | 7,1 | 5,4 | 26,8 | 53,6 |
| 3. Digər ehtiyatlar (hazır məhsul, bitməmiş istehsalat və s.) | 1,1 | 3,1 | 2,8 | 4,3 | 11,3 |
| **Cəmi ehtiyatlar** | **5279,9** | **2169,0** | **28,6** | **31,1** | **7508,6** |

*Mənbə: Şərti informasiyalar əsasında müəllif tərəfindən işlənmişdir.*

Eyni zamanda torpaq, tikili və avadanlıqlara, eləcə də qısamüddətli debitor borclarına aid olan hesabat informasiyalarının izahlı qeydlərdə açıqlanmasının burada göstərilən formaya uyğun şəkildə verilməsi təklif edilir.

Seqmentar idarəetmə strukturunun mövcud olduğu və seqment uçotunun tətbiq edildiyi ticarət müəssisələrində elektron mühasibat

uçotu texnologiyalarından istifadə edilməsi və bunun əsasında seqmentar elektron maliyyə hesabatı və idarəetmə nəzarəti sisteminin yaradılması üçün “Azmühasib”, “Günəş”, “1С:Бухгалтерия” və “Sinam” kimi bir sıra kompüter mühasibatı proqramlarından istifadə edilməsi imkanlarının olduğu qeyd edilərək, eyni zamanda “Microsoft Excel” proqramının imkanlarından istifadə etməklə, müəssisənin seqmentar idarəetmə strukturuna uyğun olan bir sıra elektron informasiya işləmələri modullarının yaradılması və bunlardan həm müxtəlif təyinatlı sənədlərin, işləmə cədvəllərinin və uçot registrlərinin qarşılıqlı elektron informasiya əlaqələndirilməsi şəraitində tam avtomatlaşdırılmış rejimdə hazırlanmasında, həm də çoxsaylı idarəetmə məsələlərinin həllində istifadə edilməsinin məqsədəuyğunluğu göstərilir.

Tədqiqat işinin üçüncü fəslində verilmiş topdanticarət və pərakəndə ticarət əməliyyatları seqmentlərində mal əməliyyatlarının bir qisminin uçotda əks etdirilməsi əməliyyatlarının elektron informasiya işləmələri modulu ilə avtomatlaşdırlmış rejimdə yerinə yetirilməsi məsələlərini əhatə edən “Seqment uçotu-1” elektron informasiya işləmələri modulu təqdim edilir.

**Cədvəl 1. “Seqment uçotu-1” modulunda marjinal gəlirin hesablanması**

**“Alfa” MMC üzrə 2020-ci ilin yanvar ayında malların topdansatışı üzrə marjinal gəlirin hesablanması cədvəli**

| Sıra № | Malın adı və mal nişanələri | Ölçü vahidi | Ticarət əlavəsi | “Göyazan” MMC | “Şahdağ” MMC | “Vilaşçay” MMC | “Xaçmaz” MMC | “Göygölticarət” MMC | “Göyazan” MMC | “Şahdağ” MMC | “Vilaşçay” MMC | “Xaçmaz” MMC | “Göygölticarət” MMC | Satışdan əldə edilən marjinal gəlir, manatla |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 1 | Soyuducu Bosch KDN65VW20N, ikikameralı | Ədəd | 474,89 | 4 | 3 | 3 | 3 | 2 | 1899,56 | 1424,67 | 1424,67 | 1424,67 | 949,78 | **7123,35** |
| 2 | Soyuducu Bosch KGN56VW30U, ikikameralı | Ədəd | 455,47 | 5 | 2 | 4 | 4 | 5 | 2277,35 | 910,94 | 1821,88 | 1821,88 | 2277,35 | **9109,40** |
| 3 | Paltaryuyan Bosch WGA242XVME | Ədəd | 453,03 | 5 | 2 | 2 | 4 | 3 | 2265,15 | 906,06 | 906,06 | 1812,12 | 1359,09 | **7248,48** |
| 4 | Paltaryuyan Bosch WGA242X0ME | Ədəd | 456,27 | 5 | 3 | 3 | 2 | 2 | 2281,35 | 1368,81 | 1368,81 | 912,54 | 912,54 | **6844,05** |
| 5 | Aspirator Bosch DWP94CC50T | Ədəd | 137,77 | 4 | 5 | 3 | 4 | 4 | 551,08 | 688,85 | 413,31 | 551,08 | 551,08 | **2755,40** |
| 6 | Aspirator Bosch DWP64CC50T | Ədəd | 61,46 | 4 | 4 | 4 | 5 | 3 | 245,84 | 245,84 | 245,84 | 307,3 | 184,38 | **1229,20** |
| | **CƏMİ:** | | | **27** | **19** | **19** | **22** | **19** | **9520,33** | **5545,17** | **6180,57** | **6829,59** | **6234,22** | **34309,88** |

**Topdanticarət əməliyyatları seqmenti**
**üzrə menecer:__________________(Qasımov Mehdi)**
**İqtisadçı-menecer:________________(Quliyeva Sevil)**

| Nəzarət məbləği: | 34309,88 |
|---|---|

| Nəzarət hesablamaları | |
|---|---|
| 15 | 7123,35 |
| 20 | 9109,4 |
| 16 | 7248,48 |
| 15 | 6844,05 |
| 20 | 2755,4 |
| 20 | 1229,2 |
| | **34309,88** |

Mal bölgüsü-2 | Məxaric hesab-fakturaları | Əməliyyat jurnalı | Memorial order | Marjinal gəlirin hesablanması

***Mənbə:*** *“Seqment uçotu-1” modulunun hazırlanması prosesində müəllif tərəfindən tərtib edilmişdir.*

Onun tərkibində müəllif tərəfindən yaradılmış bölmələrdə: 1) "Mal mədaxili qaiməsi-1-1", 2) "Mal bölgüsü-1", 3) "Mal bölgüsü-2", 4) "Məxaric hesab-fakturaları", 5) "Əməliyyat jurnalı", 6)"Memorial order" və 7) "Marjinal gəlirin hesablanması" bölmələrinin hər birində öz adlarına uyğun olan sənəd və ya cədvəllər formalaşdırılmış, onların zəruri xanaları arasında informasiya əlaqələri müəyyən edilmişdir. Burada təqdim edilən mal əməliyyatlarının elektron mühasibat uçotu modulunda tədqiqat işinin bundan əvvəlki hissələrində göstərilmiş metodikanın elektron informasiya işləmələri ilə avtomatlaşdırılaraq tamamlanması nümayiş etdirilir. Nümunə üçün "Seqment uçotu-1" modulunda marjinal gəlirin hesablanması cədvəli əks etdirilmişdir.

Dissertasiyanın **"Nəticə"** bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr yer almışdır:

Məsuliyyət mərkəzləri ilə seqmentlərin oxşar və fərqli xüsusiyyətlərinin araşdırılması nəticəsində seqmentlərin daha çox müasir iqtisadi idarəetmə funksiyalarına uyğun olması müəyyən edilmiş və bununla da seqmentar idarəetmənin təmin edilməsi üçün seqment uçotunun müasir metodikasının işlənib hazırlanmasının zəruriliyi əsaslandırılmışdır. Məsuliyyət mərkəzindən fərqli olaraq, seqmentin həm gəlirləri, həm də xərcləri müəssisənin digər komponentlərinin gəlir və xərclərindən dəqiqliklə ayrıla bilməlidir[8]. Bu əsasda müəssisədə seqmentar idarəetmənin təşkil edilməsi onun iqtisadi səmərəliliyinin yüksəldilməsi aləti kimi qəbul edilir ki, bu da seqment uçotunun müasir iqtisadi prinsiplərə uyğun olan metodikasının hazırlanmasını əsaslandırır.

Mal ehtiyatlarının əməliyyat seqmentləri üzrə bölüşdürülməsi və bunun əsasında çoxsaylı ticarət obyektlərinin mal təchizatı prosesinin mütəmadi qaydada və optimal şəkildə yerinə yetirilməsi informasiyalarının seqment uçotunun əsas obyektlərindən biri hesab olunması ticarət müəssisələrində seqment uçotunun vacib xarakterik xüsusiyyətidir.

Seqment uçotu və hesabatının əsas prinsipləri və ana xətti seqment uçotunu tətbiq edən və bunun nəticəsində seqmentar hesabat təqdim

---

[8] S.M.Səbzəliyev, V.M.Quliyev. İdarəetmə uçotu. Dərslik. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014, s.472-473

edən müəssisə tərəfindən seqment məlumatlarının necə açıqlanması və maliyyə hesabatı istifadəçilərinin informasiya ehtiyaclarının necə ödənilməsi üzərində qurulmuşdur. Müəssisədə seqmentlərin yaradılması, seqment uçotu və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsi bir sıra təşkilati proseslərin yerinə yetirilməsini zəruri edir.

Müəssisədə seqment uçotunun qurulması onun kommersiya fəaliyyətinin seqmentar idarəetmə aparatının formalaşdırılması ilə sinxron şəkildə təşkil edilir. Seqment uçotunun tətbiqinə başlamazdan əvvəl, onun barəsində müəssisənin uçot siyasəti haqqında əsasnaməsində lazımi qeydlər daxil edilməlidir. İlk növbədə müəssisənin kommersiya fəaliyyətinin seqmentar idarə edilməsi aparatı formalaşdırılır, bundan sonra isə biznes və kommersiya fəaliyyətinin seqmentlər üzrə mühasibat uçotu təşkil edilir və bunların yekun nəticəsi olaraq, seqmentar maliyyə hesabatı tərtib edilir. Seqment uçotunun təşkilinin bu üç tərkib hissəsi bir-biri ilə sıx qarşılıqlı əlaqəyə malikdir.

Müəssisədə seqment uçotunun və seqmentar hesabatlılıq sisteminin tətbiq edilməsinin mühüm məsələlərindən biri onun biznes fəaliyyətinin mühasibat uçotunda istifadə etdiyi işçi hesablar planının müəssisənin seqmentar idarə edilməsi prinsiplərinə uyğun təkmilləşdirilməsindən ibarətdir. Müəllifin fikrincə, müəssisənin özünün biznes fəaliyyətinin xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılmış mühasibat uçotunun işçi hesablar planının mövcud olması və onun müəssisənin uçot siyasəti haqqında əsasnaməsinə daxil edilərək, müvafiq qaydalarla rəsmiləşdirilməsi məsələsi auditorların diqqət mərkəzində olmalıdır[9]. Ticarət müəssisələrində vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsi və onların müəssisə daxilində, həmçinin seqmentlər arasında hərəkətinin təşkil edilməsi, sənədləşdirilməsi və uçotu məsələlərinin araşdırılması və metodikasının işlənməsi proseslərində mal ehtiyatlarına aid olan əməliyyatlara daha çox diqqət yetirilir. Bölüşdürmə prosesi seqment uçotunun ilkin mərhələsini təşkil edir. Malların bir seqmentdən digərinə buraxılması, alıcı və müştərilərə satışı və seqmentin daxili obyektlərində saxlanması əməliyyatları, eləcə də bu əməliyyatların sənədləşdirilməsi və uçotu bölüşdürmə prosesi əsasında qurulur. Bu

[9] Abbasov Q.Ə. Mühasibat uçotu. Dərslik və metodik vəsait. Bakı, "Təknur" nəşriyyatı-2017, s.327

əməliyyatların beynəlxalq standartların tələblərinə uyğun təşkil edilməsi, sənədləşdirilməsi və uçotunun metodiki məsələləri tədqiqat işində ətraflı şərh edilmişdir.

Ticarət müəssisələrində çalışan və mal əməliyyatları ilə bilavasitə əlaqəsi olan işçilərin maddi məsuliyyəti mal ehtiyatlarının seqmentlər üzrə bölüşdürülməsi prosesləri əsasında təşkil edilir. Mal ehtiyatlarının seqmentlər arasında və hər bir seqmentin öz daxili obyektləri üzrə bölüşdürülməsi və hərəkəti əməliyyatlarının sənədləşdirilməsi əsasında seqmentlər üzrə daxili idarəetmə hesabatı sistemi formalaşdırılır ki, burada da maddi-məsul şəxslərin hesabatları mühüm yer tutur. Bu hesabatlar özlərində ayrı-ayrı seqmentlərin daxili struktur komponentlərində baş vermiş mal əməliyyatlarına dair ilkin sənədləri və onlarda əksini tapmış əməliyyatların mühasibat uçotu üçün zəruri olan informasiyalarını birləşdirir. Tədqiqat prosesində topdanticarət və pərakəndə ticarət əməliyyatları seqmentlərinin hər birində çalışan maddi-məsul şəxslərin daxili idarəetmə hesabatlarının seqment uçotunun xarakterik xüsusiyyətlərinə uyğunlaşdırılmış formaları işlənib təqdim edilmiş, onların tərtib edilməsi, seqment uçotu üçün zəruri olan informasiyaların əks etdirilməsi, uçot qaydalarına uyğun işlənməsi və ümumiləşdirilərək, uçot registrlərinə daxil edilməsi prinsipləri əsaslandırılmışdır. Bu idarəetmə hesabatlarının nümunəsində mal əməliyyatlarının seqment uçotunda ilkin qeydiyyatı və uçot registrlərinə daxil edilmək üçün ümumiləşdirilməsi qaydaları işlənmişdir.

Seqmentar idarəetmə strukturunun mövcud olduğu və seqment uçotunun tətbiq edildiyi ticarət müəssisələrində elektron mühasibat uçotu texnologiyalarindan istifadə edilməsi və bunun əsasında seqmentar elektron maliyyə hesabatı və idarəetmə nəzarəti sisteminin yaradılması üçün bir sıra kompüter mühasibatı proqramlarından istifadə edilə bilər. Tədqiqat işində ticarət müəssisələrində seqment uçotunun aparılması üçün mühasibat uçotu üzrə ixtisaslaşdırlmış proqram təminatları ilə yanaşı, “Microsoft Excel” və “Microsoft Word” kimi kütləvi kompüter proqramlarından da geniş istifadə edilməsi məqsədəuyğun hesab edilmişdir. Bu proqramların geniş spektrli imkanlarından istifadə etməklə, müəssisənin seqmentar idarəetmə strukturuna uyğun olan bir sıra elektron informasiya işləmələri modullarını yarat-

maq və bunlardan həm müxtəlif təyinatlı sənədlərin, işləmə cədvəllərinin və uçot registrlərinin qarşılıqlı elektron informasiya əlaqələndirilməsi şəraitində tam avtomatlaşdırılmış rejimdə hazırlanmasında, həm də çoxsaylı idarəetmə məsələlərinin həllində istifadə edilməsi məqsədəuyğun hesab edilmiş, həmçinin, topdanticarət əməliyyatları seqmentində malların alıcı müəssisələr üzrə bölüşdürülməsi, bunların əsasında satış hesab-fakturalarının tərtib edilməsi, eləcə də malların anbardan buraxılması və satışı əməliyyatlarının uçotda əks etdirilməsi proseslərinin müəllif tərəfindən yaradılmış “Seqment uçotu-Modul-1” adlı elektron informasiya işləmələri modulu ilə avtomatlaşdırlmış rejimdə yerinə yetirilməsi məsələləri təqdim edilmişdir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:**

1. Seqment uçotunun nəzəri əsaslarına dair bəzi məsələlər //“Kooperasiya” elmi-praktiki jurnalı, Bakı, 2016, № 04(43). - s.141-145

2. Aqrar sektorda seqment uçotunun təşkilinin bəzi aspektləri// Azərbaycan Kooperasiya Universitetinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi problemləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, “Kooperasiya Universiteti” Nəşriyyatı, 01-02 iyun 2018-ci il. - s.578-580

3. Aqrar sektorun emal və ticarət müəssisələrində seqment uçotunun xarakterik xüsusiyyətləri// “Azərbaycan Aqrar Elmi” elmi-nəzəri jurnalı, Bakı, 2019, № 1. – s. 174-177

4. Principles of reflecting information in segmental financial statements and disclosing them in explanatory notes// Научно-аналитический журнал «Финансовая экономика», Москва, 2021, № 3. - s.223-227

5. Ticarət müəssisələrində seqment uçotu şəraitində mühasibat uçotunun işçi hesablar planının formalaşdırılmasının bəzi xüsusiyyətləri// “Maliyyə və uçot” jurnalı, № 03,04. Bakı, 2021. - s.40-48.

6. Ticarət müəssisələrində seqment uçotunun təşkilinin və gəlirlərin artırılmasının bəzi məsələləri// "İnnovasiyalı iqtisadiyyat və menecment" jurnalı, №1/5. Azərbaycan Texnologiya Universiteti, Gəncə, 2021. - s.119-125.
7. Müəssisənin uçot siyasətinin seqment uçotunun əsas xüsusiyyətlərinə uyğunlaşdırılmasının bəzi məsələləri// "Kooperasiya" elmi-praktiki jurnalı, Bakı, 2021, № 4 (59). - s.136-140.
8. Some issues of the use of debt and capital instruments in the context of segment accounting// Социальные и гуманитарные науки в XXI Веке: Итоги, вызовы, перспективы 2021. Сборник научных трудов II Международной научно-практической конференции, посвященной Году науки и технологий. Часть 1. Ассоциация «Научно-исследовательский центр «ПЕРЕСВЕТ», Санкт-Петербург, 2021. - s.106-112.
9. Seqment uçotu şəraitində mal ehtiyatlarının müəssisənin əməliyyat seqmentləri üzrə bölüşdürülməsinin bəzi məsələləri// Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası: Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, 31 may 2021. – s. 86-88.

Dissertasiyanın müdafiəsi 28 fevral 2022-ci il tarixində saat 16:00 Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 28 yanvar 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.01.2022
Kağızın formatı: 60x84
Həcm:  38766. işarə
Tiraj: 100 ədəd